İPƏK YOLU, No.4, 2023, səh.184-190
DOI: 10.30546/1810-911X.2023.4.184

# RUSİYA İMPERİYASININ ŞİMALİ AZƏRBAYCANDA MAARİF SİYASƏTİNƏ TARİXİ BAXIŞ
## (Cümhuriyyət qurucularının əsərləri əsasında)

**Vaqif Hacıyev**

Azərbaycan Dövlət İdman Akademiyası, Bakı, Azərbaycan

**Xülasə**. Məqalə Çar Rusiyasının Şimali Azərbaycanda yeritdiyi kolonial siyasətinin istiqamətlərindən biri olan "maarifçiliyə" həsr olunmuşdur. Məqalədə Cumhuriyyət qurucularının əsərləri əsasında maarifçilik siyasətinin mahiyyəti öyrənilir. Nəticə etibarilə elm və din siyasəti kimi, təhsil siyasəti də müstəmləkəçiliyin tərkib hissəsi kimi göstərilir.

**Açar sözlər**: Maarifçilik hərəkatı, müstəmləkə siyasəti, ruslaşdırma və xristianlaşdırma siyasəti.

**A HISTORICAL VIEW OF THE EDUCATION POLICY OF THE RUSSIAN EMPIRE IN NORTHERN AZERBAIJAN**

**Vagif Hajiyev**
*Azerbaijan State Academy of Physical Education and Sport, Baku, Azerbaijan*

**Abstract**. The presented article is devoted to "enlightenment", which is one of the directions of the colonial policy of tsarist Russia in Northern Azerbaijan. The article explores the essence of the educational policy based on the works of the founders of the republic. As a result, like the politics of science and religion, the politics of education are part of colonialism.
**Keywords**: Enlightenment movement, colonial policy, policy of Russification and Christianization.

**ИСТОРИЧЕСКИЙ ОБЗОР ОБРАЗОВАТЕЛЬНОЙ ПОЛИТИКИ РОССИЙСКОЙ ИМПЕРИИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ**

**Вагиф Гаджиев**
*Азербайджанская Государственная Спортивная Академия, Баку, Азербайджан*

**Резюме.** Представленная статья посвящена «просвещению», являющемуся одним из направлений колониальной политики царской России в Северном Азербайджане. В статье исследуется сущность просветительской политики на основе трудов основателей республики. В результате, как и политика науки и религии, политика образования оказывается частью колониализма.
**Ключевые слова:** Просвещение, колониальная политика, политика русификации и христианизации.

## 1. Giriş

"Rusiya imperiyasının Şimali Azərbaycanda maarif siyasətinə tarixi baxış" (Cümhuriyyət qurucularının əsərləri əsasında) mövzusunda təqdim olunan məqalə həm tarixlik, həm də müasirlik baxımdan vacib və aktuallıq kəsb edən məsələləri ehtiva edir. Məlum olduğu kimi XIX əsrin əvvəllərində Azərbaycan dövlətçiliyinin təmsilçiləri olan xanlıqların Çar rusiyası tərəfindən işğal edilməsi ilə xalqımız tarixinin bir əsrlik məşəqqətli Rusiya müstəmləkəçiliyi dövrünü yaşamağa məhkum edildi. Azərbaycanın şimal hissəsində (hələ işğalın gedişində-1801-1828–ci illərdə) formalaşan siyasi və iqtisadi idarəçilik bir məqsədə milli müstəmlək zülmünün həyata keçirilməsinə istiqamətlənmişdi. Ruslaşdırma və

xristianlaşdırma, dəyərlərimizin sıradan çıxarılması, ermənilərin tarixi ərazilərimizə köçürülməsi (eyni zamanda XIX əsrin II yarsı-XX əsrin əvvəllərində rusların köçürülməsi) kimi dəhşətli hadisələr bu qəbildəndir. Görkəmli mühacir tarixçimiz C. Zeynaloğlunun təbirincə desək "Müstəmləkəçilər milli varlığımızı söndürmək üçün bir əsr ərzində əllərindən gələni əsirgəməmişdilər". Qeyd etmək lazımdır ki, Rusiyanın işğal prosesində və işğaldan sonrakı bütün dövrdə həyata keçirtdiyi iqtisadi-sümürgəçilik, din, mənfur köçürtmə, inzibati idarəçilik, əhali siyahıyaalmaları, məhkəmə sistemindəki "islahat" lar sistemli formada dövlət marağlarına xidmət edirdi və koloniyal siyasətin tərkib hissələrini təşkil edirdi. Bu dövrün dəhşətlərini monqol yürüşləri ilə müqayisə edən M. Abdullayev yazır: Azərbaycanda rus müstəmləkəçiliyinin qanunsuzluqları və özbaşınalıqları haqqında da cild-cild kitab yazmaq olar və bu baxımdan o dövrün, tariximizdə ola bilsin ki, analogiyası yoxdur və qismən monqol işğalları ilə müqayisə oluna bilər [1, s.49]. Beləliklə, Rusiya işğalları dövrü, tariximizin ən ağır və məşəqqətli dönəmlərindən birini təşkil edir. M.Ə. Rəsulzadənin qeyd etdiyi kimi, "siyasi hüququnu itirən xalqımız məhkumiyyətin acısını tamamilə dadmışdı". Məhkumiyyət tarixini yaşayan xalq nəinki rus dilində danışmalı, rus məmurlarının fikrincə, rus dilində düşünməli idilər. Həmin dövrün Çar rusiyasının Azərbaycanda həyata keçirdiyi məktəb və maarif siyasəti də müstəmləkə siyasətinin bir tərkib hissəsi olmuşdur. Tarixi faktlar şahidlik edir ki, XIX əsr boyu Çarizmin Azərbaycandakı məktəb siyasəti ona məxsus bütün "müsbət" xüsusiyyətləri ilə birlikdə həm də Rusiyanın milli müstəmləkə siyasətinin bir hissəsi olmuşdur. Rusiyanın kolonial maarif siyasəti, ümumi kolonial siyasətin tərkib hissəsi kimi əhalini xristianlaşdırmaq və ruslaşdırmaq məqsədinə xidmət edirdi. Hesab edirik ki, maarifçilik hərakatının görkəmli nümayəndələri - A.A. Bakıxanov, M.Ş. Vazeh, İ. Qutqaşınlı, M.F. Axundzadə, S.Ə. Şirvani, M.H. Zərdabi, F. Köçərli və s. kimi şəxsiyyətlərin XIX əsrdə fəaliyyəti qabaqcıl rus-ictimai maarif mühitinin təsiri ilə yanaşı genetik baxımdan XVIII əsr ədəbi intibahının görkəmli nümayəndələri - M.P. Vaqif, M.V. Vidadi, A. Təbrizi, A.M. Şirvani kimi mütəffəkirlərə bağlılıqla əlaqədardır. Hətta Azərbaycan türkcəsində, özüdə Qafqaz canişinin mətbəsində M.F. Axundovun komediyalarının nəşrinə icazə verən Çar hakimiyyət orqanlarının öz məqsədi var idi. O. Vəliyev "Azərbaycan millətçiliyi" əsərində M.Ə. Rəsulzadənin bu məsələyə münasibətini belə təqdim edir: "Axundzadənin xalq dilində yazmağa başlamasının müəyyən icazə və ya kolonial modernləşdirmə əsasında başladığını ifadə etmək mümkündür". Çarlıq Şərqi Qafqazda hakimiyyətini qurduqdan sonra nəzarəti ələ keçirmək üçün İran hegemoniyasına qarşı durmasının yerli dildə yazmağı yayğınlaşdırmaq olacağı qərar vermişdir. Bu məntiqlə modern Azərbaycan ədəbiyyatının qurucusu olaraq qəbul edilən Mirzə Fətəli Axundzadə komediyalarını Vorontsovun icazəsi və təşviqi ilə xalq dilində yazmışdır. İlk dəfə, türkcə komediya canişinin mətbəsində çap edilmiş və Tiflisdə teatr səhnəsinə qoyulmuşdur [14, s.63-64]. Yəni işğalçılar türk dilinə müəyyən meydan verməklə İranın buradakı (din, dil və s) təsirini azaltmaq niyyətində idi. Məqalə əsas etibarı ilə-XIX-XX əsrin əvvəllərində-Şimali Azərbaycan ərazisində işğaldan sonra Çar Rusiyasının maarif sahəsində yürütdüyü müstəmləkə siyasətinin mahiyyətinin öyrənilməsinə həsr olunmuşdur. Məlum olduğu kimi H. Əhmədovun

sözügedən mövzuda iri həcmli monoqrafik tədqiqatı mövcuddur. Digər tədqiqatçılar da XIX əsrdə Azərbaycanda rus qəza məktəblərinin açılması və fəaliyyəti, Qori müəllimlər seminariyası və Azərbaycanlı məzunları, XIX əsrn 80-ci illərindəki rus-tatar məktəblərinin yaranması və tariximizdə yeri və bu kimi digər problemləri araşdırmışlar. Nə qədər təəcüblü olsa da, qeyd etmək lazımdır ki, bizim toxunduğumuz məsələlər orada öz əksini tapmamışdır. Səbəbi çox sadədir, tariximizin saxtalaşdırılmış digər sahələri kimi, maarifin də siyasi-ideoloji baxımdan öyrənilməsi olmuşdur. Çarizmin təhsil siyasəti nəinki müstəmləkələrdə, Rusiyanın özündə də mürtəce xarakter daşımışdır. Lermontov, Puşkin, Tolstoy, Dostoyevski kimi dahiləri Rusiyanın maarif naziri Uvarovun görməyə belə gözü yox idi. A. Bakıxanov, M.F. Axundov, M. Kazımbəy, H. Zərdabi , F. Köçərli, N. Yusifbəyli, Ə. Hüseynzadə, Ə. Topçubaşov və bir çox şəxsiyyətlər Rusiyanın elm və təhsil müəsisələrinin yetirmələri idi bu inkar olunmaz bir faktdır. Lakin niyyət belə idi ki, onlar Azərbaycan xalqına yox, Rusiyaya xidmət etməli idilər. Onların yaradıcılığını öyrənən istənilən tədqiqatçı, bu böyük şəxsiyyətlərin hər birinin həyatında “ Velikorus” şovinist rus ideologiyasının məqsədini görə bilər.

Beləliklə, Azərbaycanın işğalından sonra Rusiyanın yeritdiyi təhsil siyasəti müstəmləkəçi xarakter daşımış və ümumilikdə ruslaşdırma və xristianlaşdırmağı qarşısma məqsəd qoymuşdur. Azərbaycan xalqınm övladları yeni rusdilli məktəblər vasitəsilə rus həyat tərzinə inteqrasiya olunmalı, (gələcəkdə sapı özümüzdən olan rusbaşlı baltaların hazırlanması) rus dilinə danışmağı, hətta (rus dövlət məmurlarmm qeyd etdiyi kimi) rus dilində düşünməyə məhkum olunmalı idilər. Rus məktəbləri- qəza məktəbləri, şəhər məktəbləri, ibtidai 4 sinifli ali məktəb, kəndlərdə açılmış “xalq məktəbləri” bütövlükdə dövlət siyasətinin tərkib hissəsi kimi xalqımızm rus mədəniyyətinə inteqrasiyasmı və nəticə etibarı ilə assimilyasiyasmı nəzərərdə tuturdu. Qeyd etmək lazımdır ki, Rusiya işğalı nəticəsində VII əsrdən Azərbaycanda formalaşmış ənənəvi məktəblər və mədrəsələr dövlət qayğısmdan tamamilə kənarda qalmışdılar. Əqidəli və milli düşüncəsi olan müəllimlər (mollalar, mirzələr) o cümlədən, xalqm inandıqları axundlar, bəyzadələr və xanzadələr müxtəlif vasitələrlə sıxışdırılır və gözdən salınırdı. M.Ə. Rəsulzadə, Ə. Topçubaşov, H. Baykara, M.B. Məmmədzadə və digər Cümhuriyyət qurucuları öz əsərlərində dəfələrlə işğalçıların elm, din və maarif siyasətinin mahiyyətini açaraq bunun kolonial siyasətin tərkib hissəsi olduğunu sübut etmişlər. Sözügedən məqalədə biz əsasən təhsillə bağlı məsələlərə diqqət edəcəyik, həm də Cümhuriyyət qurucularının əsərləri əsasında. Xalqın milli kimliyini məhv etməyə yönələn Rusiya imperiyasının siyasətinin əsas istiqamətlərinin fəlsəfəsini dəqiq bilən M.Ə. Rəsulzadə bu məsələni belə səciyyələdirir: “Çarizm Azərbaycanı ruslaşdırmaq üçün iki cəbhədən gəliyordu. Bir tərəfdən xəlqin hissiyyəti-diniyyəsini idarə edən üləma və mollaları kəndi kontroluna tabe tutur, digər tərəfdən də milli tərbiyəyə meydan verməyərək xəlqi rus (uşkol) məktəblərində oxumağa icbar ediyordu” [10, s.16]. Elmi əhəmiyyətini nəzərə alıb onun mülahizələrinə daha çox yer vermişik. “XIX əsrin əvvəllərində xalq siyasi cəhətdən məğlub olmuşsa da, mənən

bərbad olmaq istəmirdi" [10, s.17]. Tarixdən məlum olduğu kimi əsrlərlə Azərbaycanda məktəb və mədrəsələrdə, mollaxanalarda tədris zamanı fars və ərəb dilindən istifadə olunurdu. İşğal nətcəsində meydana rus dili də daxil oldu. "Mirzəyə" işğal nəticəsində "uçitel" də əlavə edildi. XIX əsrdə dilimizi, mənəvi dəyərlərimizi qorumaq xeyli çətinləşdi. Əvvəllər-XIX əsrin əvvəllərinə qədər İran nüfuzunun mənəvi assimliyasiyası hiss olunmurdusa, indi vəziyyət dəyişdi. Xristian və ruslaşdırma faktoru da əlavə edildi. M.Ə. Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində yazırdı ki, "Fəqət xəvass(aristokratiya) yenə yanılmışdı. Vaxtilə Firdovsinin romantizmi, Sədinin dərin hikməti, Hafizin dadlı qəzəlləri qarşısında bayılan "Mirzə" bu dəfə Lermontovun dağlarda uçan ruhu, Puşkinin su kimi axan nitqi, Tolstoyun məsihanə fəlsəfəsinə vurulmuş bir "uçitel" idi" [10, s.17]. Yenə də M.Ə. Rəsulzadə davam edərək vurğulayırdı: "Sənələr keçdi, bir tərəfdə "mirzə", digər tərəfdə "uçitel" olurdu. Bunlar bir çox zaman anlaşmadılar. Farslaşmış mirzə kimi ruslaşmış uçitel dəxi xəlqin hədsən duyduğu mətləbi bir çox zaman dərk edə bilmədi. Nəhayət, bir çox kəcvaclardan keçildi. Məktəb və mədrəsələrə qarşı üsulsuz mübarizələrdən sonra "uçitel" məqsədi anladı, bildi ki, Sədini də, Tolstoyu da türk xalqına öyrətmək, türkü onlarla aşina etmək həm vacib (lazım), həm faydalıdır" [10, s.17]. Fəqət, bununla bərabər türkü öz Sədisindən, öz Tolstoyundan da məhrum etmək olmaz.

M.Ə. Rəsulzadə "Azərbaycan Cumhuriyyəti" əsərində Rusiya işğalının mahiyyətinə münasibət bildirərək qeyd edir ki, "Azərbaycan xanlıqları kəndi mənliklərini həqqilə dərk etmədən, kəndisini idrak etmiş milli bir sima göstərmədən tamamilə İran hərs və nüfuzi-mənəvisi altında ikən mövqelərini müasir bir ordu ilə gələn rusun qüvvət bazusuna tərk və qəzayə təslim oluyorlarsa da xəlq kəndinə məxsus ədəbiyyatı, şairləri, aşıq və dərvişləri ilə hüzn və məsərrətini, kəndi lisanı ilə, idrakı ilə bir vücud olduğunu sezdiriyordu" [10, s.13]. Bəli! Pəhləsi (Fars düşüncəsi) üstündən enməyən Füzulisi, Koroğlu ilə bağrı yanıq Kərəmə ağlayan aşiqləri, bu aşiqlərin ürək dağlayan sazları ilə çobanların ruhə sinən türküləri, cocuqların sevə-sevə oxuduqları mahnıları, anaların yavrularını uyudurkən (yatızdırdıqları zamanı) çağırdıqları ninniləri (laylaları), xəvassının (yuxarı ali - zümrənin, təbəqənin, xalqın aristokratiyasının ) düşüncəsinə kəndisini İranlı bilən bu xalqın müdhiş bir zəlalətdə olduğunu göstəriyor: "Xayır, degil, sən türksən! Diyordu" [10, s.13].

Ümumiyyətlə, Azərbaycanda XX əsrin əvvəllərində xalqımızın ümumi durumu olduqca acınacaqlı idi. Rusiya hakim dairələri məhkumluq acısı yaşayan xalqa kölə psixalogiyası aşılayırdılar. Azərbaycanda maarifin vəziyyəti isə daha acınacaqlı idi. II Dumada Azərbaycandan millət vəkili seçilən Mustafa Mahmudov maarifin vəziyyəti ilə bağlı belə demişdi: "Biz müsəlman müəllimlər maarif sahəsində hər hansı bir yeri almaqdan məhrum edilmişik. Bu vəziyyətdən maarif naziri heç utanırmı?... Rus olmayan millətlər, xüsusilə türklər üçün maarif nazirliyi tərəfindən açılan məktəblər bomboşdur. Çünki maarif nazirliyi bu məktəblərdə müqəddəs olan bir şey qoymamışdır. İnsanlıq adına nə varsa hamısı silinmiş, sökülüb atılmışdır". Mustafa Mahmudov sözünə davam edərək demişdir ki, Rus dövləti

Zaqafqaziyada yerləşən polis idarəsi üçün ildə 2.361.460 rubl məbləğində pul ayırdığı halda, rus olmayan millətlərin təhsilinə cəmi-cümlətani 114.000 rubl pul ayırmışdır [12, s.117].

İsmayıl xan Ziyadxanlının bu məsələyə munasibəti daha kəskin olmuşdu. Onun Dövlət Duması tribunasından parlaq nitqində qeyd olunurdu: "Artıq bizim üçün də hərəkət etmək vaxtı çatmış və bundan sonra susmamağı qərara almışıq. Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsr kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Sözün əsl mənasında yüz il ərzində biz hökumətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Siyasi, sosial və iqtisadi cəhətinin hansına nəzər salsanız, hamsında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsanız. Ölkəmiz istila edilən kimi dərhal milli varlığımıza təcavüz edildi. Xalq təhsilindən, ümumiyyətlə maarif sahəsindən danışmağa belə dəyməz. Çünki bizim kəndlərin heç birində məktəb yoxdur. Yüz kilometrələrlə gedilsə belə, hər hansı bir yaşayış məntəqəsində məktəbə rast gəlməzsiniz, halbuki, bizdən maarif işləri üçün vergi toplanır". Xalqımızın böyük oğlu sözünə davam edərək qeyd edir ki, Cənablar. Bizə deyirlər ki, müsəlmanlar çox geri qalmışdır. Bu, əsla doğru deyildir, əksinə, geri qalmaq üçün hökumət özü badalaq vurur... Hörmətli millət vəkilləri, bizdəki idarə sistemi tənqiddən kənardır. Belə ki, əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahili olaraq düşünülərsə, bu dəniz sizə lüzumu olmayan nə qədər boş və səfil adam varsa hamısını bizim Qafqaz sahilinə atır və onlar da həqiqətdə əxlaqsız olan bir idarənin məmur kadrlarını təşkil edirlər. Bizim ölkəmizdə dövlət idarəsinin idealı rüşvət və xalqa əziyyət verməkdir. "Gözü çıxarılmalı müsəlmanlar "üçün bundan daha yaxşısı olarmı?". Cinayət məhkəməsi tərəfindən verilən sürgün, hərbi məhkəmələrin verdiyi edam qərarları əslində tərcüməçilər tərəfindən təyin olunur. Çünki, bizdə müsəlmanlar rus dilini, tərcüməçilər isə türk dilini bilmirlər" [5, s.128]. Qeyd etmək lazımdır ki, məhkəmələrdə süründürməçilik, rüşvət və özbaşınalıq adi hal almışdı.

XIX əsrin birinci yarsında və 1870-1884-cü illərdə çar fərmanı ilə türklər üçün tərtib olunan dərsliklərdə açıq aşkar ruslaşdırma siyasəti öz əksini tapırdı. Hətta, 1905-1907-ci il inqilabından sonrakı, nisbətən senzuranın yumşaldığı dövrdə də, maarifin vəziyyəti bərbad olaraq qalırdı. Dövrün mənbələri bunu təsdiqləyir. 1905-ci il 17 oktyabr azadlıq fərmanı əsasında Azərbaycandakı ibtidai məktəblər haqqında 37 maddədən ibarət nizamnaməyə istinadən qeyd etmək olar ki, ruslaşdırma və xristianlaşdırma xətti maarif sahəsində Rusiya işğalından milli istiqlala qədərki dövrdə dövlət siyasətinin ana xəttini təşkil etmişdir. Nizamnamədə olan maddələrdən bəzilərini qeyd etməyi vacib hesab edirik:

Maddə 2 - yabancı millətlərin məktəbləri fikir, əxlaq, məişət cəhətindən o xalqın tərəqqisinə, həm dil, həm də adət baxımından ruslarla yaxınlaşmalarına xidmət etmək məqsədilə təsvir olunmalıdır [5, s.116-117].

Maddə 13 - Yabancı millətlərin dərs kitabları həmin xalqların dilində rus hərifləri ilə nəşr olunmalıdır. Hər hansı bir xalqın milli əlifbası varsa, dərs kitabları həm milli, həm də rus əlifbası ilə nəşr olunmalıdır.

Maddə 21 - Xristianlığı təbliğ edən kilsə mahnılarının digər millətlərin qəlbinə yol tapması üçün bütün məktəblərdə kilsə mahnıları oxunmalıdır.

Maddə 27 - Yabancı millətlərin məktəblərində, mədrəsələrində kilsə mahnıları lazım olmasa da, digər millətlərin uşaqlarına əxlaq tərbiyəsi vermək məqsədi ilə bu mahnılar həm rus, həm də ana dilində öyrənilməlidir.

Əgər yabanı millətlər övladlarına öz dini mahnılarını öyrətmək arzusunda olsalar, məktəb müdiri müavinindən icazə almalıdır [10, s.117].

Qafqaz müsəlman müəllimlərinin I qurultayı iştirakçıları olan görkəmli ziyalılar - H. Zərdabi, Ə. Ağayev, N. Nərimanov, M. Mahmudbəyov, A.R. Əfəndiyev və başqalarının şahidliyi və qocaman müəllim Səməd bəy Acalovun qurultay haqqındakı tarixi məlumatları, İ. Ziyadxanlı, M. Mahmudov və Əlimərdan bəy Topçubaşovun Azərbaycanda maarifin acınacaqlı durumu haqqındakı tarixi qeydləri bir daha sübut edir. Qocaman müəllim Səməd bəy Acalov qurultayda baş verən ixtilafı belə izah edirdi: "Bakıda məktəblər üzrə Livitski adlı bir inspektor (müfəttiş) vardı. Qatı irticaçı hərəkət və rəftarında ayrı-seçkiçiliyə, irqçiliyə yol verirdi. O məktəblərdə bir kəlmə də olsa belə Azərbaycanca danışmağı qadağan edirdi: "Məbadə dərs zamanı bir kəlmə də olsa tatarca (azərbaycanca) danışasız. Kim bu əmri pozsa müəllimlikdən qovulacaq". Müəllimlər dəhşətə gəlib nə edəcəklərini bilmirdilər. Onlar deyirdilər ki, "rus dilində ifadə etdiyimiz sözləri nə sayaq başa salaq. "Sabaka" sözünü it kimi hürüb "ham-ham", pişik sözünü "miyo-miyo" edib əyan edək?!" [12, s.177-178].

Əsrlərlə öz dilinə xor baxmış siyasi elita tarixi səhv etmişdi. Türkcə əvam və köylü lisanı ədd olunmuş, lisani-rəsmi və ədəbi olmaq üzrə farsi üstünlük təşkil etmiş, nəticədə tühaf (qəribə) bir millət vücuda gəlmişdi: dili başqa, yazısı başqa bir millət! Araz çayının cənubundakı Azərbaycanın halı bu haldır". Orada hər kəs türkcə söylər, fəqət iş yazıya gəlincə fars dili istifadə olunur. Xalqın yuxarı zümrəsinin- elitanın tarixi prosesdə hiss etmədiyi, diqqət yetirmədiyi yanlış yanaşmaya xalq kütlələri heç vaxt laqeyd qalmamışdır. "Xəlq qeyri-təbii olan bu halə ünsüri bir müqabilə yapıyordu. Türk xəlqi xəvassdan heç bir kimsənin əhəmiyyət vermədiyi bu halə kəndi milliyətindən isqat edilməsinə qarşı qiyam etmişdir" [10, s.14]. Rusiya işğal rejiminə gəldikdə isə - "Xəlqdə nə bu məmurluğu qəbul edən mollalara etimad, nə də məzkur uşkollardan çıxan bəyzadələrə etibar vardı. Hökumət tərəfindən təyin olunan mollalara "dəftər mollası", rus uşkolunda oxuyan gənclərə də "rus balası" deyən xalq kəndi hissi-fitrətilə sezdiyi ruslaşdırma siyasətinə bildiyi kibi müqabilə etmişdir. O, dəftər mollasına öz "axund"unu, hökumət uşkoluna da kəndi "məktəbxanə"sini qarşı qoymuşdu [10, s.17].

**Nəticə.** Qeyd etmək lazımdır ki, XIX əsrdə Şimali Azərbaycanda maarifin vəzyyəti ilə bağlı əsərlər yazılmış və araşdırılmalar aparılmışdır. Rusdilli məktəblər milli tərbiyəyə az yer verilməsinə baxmayaraq bütövlükdə XIX əsrdə Azərbaycan maarifmin inkişaf tarixində mühüm rol oynamışdır. XIX əsr Azərbaycan maarifının tarixinə dair elmi- pedaqoji

ədəbiyyatyın öyrənilməsi bu dövrdə Azərbaycanda yeni məktəblər şəbəkəsinin yaradılması, xüsusilə ( XIX əsrin 70-80 ci illərində və sonrakı dövrdə) Qori müəllimlər seminariyasmm Azərbaycan şöbəsinin və rus- tatar (Azərbaycan) məktəblərinin yaradılmasını müsbət dəyişiklik kimi sübut edir. Çarizmin Azərbaycandakı məktəb siyasəti ona məxsus bütün mənfı xüsusiyyətləri ilə birlikdə Rusiyanın milli müstəmləkə siyasətinin bir hissəsi idi. Bununla belə obyektiv olaraq gələcəkdə Azərbaycan əhalisinin mütərəqqi yolla təhsil alması üçün müəyyən zəmin hazırlandı [2, s.136]. Məktəb tarixi ilə bağlı əsərlərdə qeyd olunduğu kimi Rusiya İmperiyasınm işğalçılıq siyasətinə baxmayaraq Şimali Azərbaycanda xalq maarifı və təhsil XIX əsrdə böyük inkişaf yolu keçmiş, məktəblər həm kəmiyyət, həm də keyfıyyətcə xeyli inkişaf etmişdir. Rusiyanm maarif siyasətinin fəlsəfəsini M.Ə. Rəsulzadə “Azərbaycan Cumhuriyyəti” əsərində dahiyanə formada təhlil etmişdir: Getdikcə Farslaşan Azərbaycan türkü bu dəfə ruşlaşdırmaq siyasətinə məruz qalırdı. Təbii idi ki, bu hal xalqm heysiyatına toxunurdu. Çarizm Azərbaycanı ruslaşdırmaq üçün iki cəbhədən gəlirdi. Bir tərəfdən xalqm heysiyyatı diniyyəsini idarə edən üləma və mollaları kəndi kontroluna tabe tutur, digər tərəfdən də milli tərbiyəyə meydan verməyərək xəlqi rus məktəblərində (uşkol) oxumağa məcbur edirdi.

## Ədəbiyyat


1. Abdullayev M. (2005), Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər ( XIX əsrin 40-cı illərinə qədər), Bakı.
2. Azərbaycan tarixi. (2007), Bakı.
3. Bakıxanov A.A. (1985), Əsrarül-məlakut ( Kainatın sirləri), Bakı.
4. Bakıxanov A.A. (1991), Gülüstani-irəm, Bakı.
5. Baykara H. (1992), Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı.
6. Bodenştedt F. (2014), Mirzə Şəfi haqqında xatirələr. Şərqdə min bir gün kitabında, Bakı.
7. Əhmədov H. (2000), XIX əsr Azərbaycan məktəbi, Bakı.
8. Hüseynov H. (2006), XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən, Bakı.
9. Xəlilli X. (2006), Qarabağ. etnomənəvi inkişaf tarixi, Bakı.
10. Rəsulzadə M.Ə. (1990), Azərbaycan Cümhuriyyəti, Bakı.
11. Seyidov Ə. (1968), Pedagogika tarixi, Bakı.
12. Süleymanov M. (1989), Eşitdiklərim, oxuduqlarım, gördüklərim, Bakı.
13. Turan A. (2008), Əli bəy Hüseynzadə. Moskva.
14. Vəliyev O. (2021), Azərbaycan millətçiliyi, Bakı.
15. Zeynaloğlu C. (1992), Müxtəsər Azərbaycan tarixi, Bakı.
16. Zərdabi H. (2010), Əkinçi (elm və həyat), Bakı.